

# Süleyman Ələsgərov

## Ona bəstəkarlıq ilhamı verən doğma yurdu idi...

**«İncəsənətin çiçəklənməsi naminə yorulmadan çalışan və aramızdan gedən dahi sənətkarlardan söz düşəndə ani olaraq kədər hissi qəlbə hakim kəsilir. Lakin onların ölməz sənətini yada salanda bu məyusluğu sevinc, şadlıq hissləri əvəz edir. İftixar hissi keçirirsən ki, bu sənətkarlar indiki və gələcək nəsillər üçün diqqətəlayiq, həmişə təravətli, müasir, ölməz sənət əsərləri qoyub gediblər.»**

Bu qiymətli sözlər Azərbaycan SSR xalq artisti, Respublika Dövlət mükafatı laureatı, görkəmli bəstəkar, gözəl pedaqoq, publisist, ictimai xadim, professor Süleyman Ələsgərovun xalqımızın böyük nəğməkarı Bülbül Məmmədova həsr etdiyi «Mədəniyyətimizin Bülbülü» adlı məqaləsindən («Mədəniyyət» qəzeti, 03.12.1997) bir parça idi. Mən isə öz növbəmdə bu qiymətli sözləri elə bəstəkarın özünə şamil etmək istərdim.

Süleyman Əyyub oğlu Ələsgərov 1924-cü il fevralın 22-də Şuşada dünyaya göz açmış, bu gözəl mühitdə böyümüşdür.

Şuşa Azərbaycanın bir çox sənətkarları kimi Sü-

leyman Ələsgərova da yazıb-yaratmaq ilhamı vermişdir. Bunu özü də həmişə etiraf edərdi: «...Mənə bəstəkarlıq ilhamı verən hər şeydən əvvəl, doğma yurdumdur.»

Məhz doğma yurdunun gözəlliyindən ilhamlanan, ürəyi musiqi ilə döyünən kiçik Süleyman orta məktəb təhsilindən sonra Şuşada musiqi texnikumunun tar sinfinə daxil olur. O, artıq bu illərdə istedadı, ifaçılıq qabiliyyəti ilə müəllimlərinin diqqətini cəlb edir.

Sonralar isə Bakıya, Konservatoriyaya gələn Süleyman Ələsgərovun ilk qarşısına çıxan, ona məsləhətlər verib yol göstərən Azərbaycan professional musiqisinin banisi dahi bəstəkarımız Üzeyir Hacıbəyov olur. Üzeyir bəyin səyi nəticəsində Azərbaycan Dövlət Konservatoriyasına daxil olan bəstəkar professor B.İ.Zeydmandan və Üzeyir Hacıbəyovdan dərs alır.

Beləliklə, bir bəstəkar kimi formalaşan, Üzeyir bəyin qayğısı və tövsiyələri sayəsində yaradıcılığa qədəm qoyan S. Ələsgərov 1948-ci ildə Konservatoriyanı fərqlənmə diplomu ilə bitirir və elə həmin ildən professional bəstəkar kimi yazıb-yaratmağa başlayır. O bütün yaradıcılığı boyu musiqinin müxtəlif janrlarına müraciət edərək yazdığı əsərlərlə xalqına gözəl töhfələr vermişdir.

Bəstəkar «Bahadur və Sona», «Solğun çiçəklər» operalarının, 11 musiqili komediyanın, «Bayram müqəddiməsi», «Vətən», «Gənclik» simfoniyalarının, 7 simfonik poemanın, süitaların, konsertlərin, tar ilə xalq çalğı alətləri orkestri üçün konsertin, violonçel, fortepiano və simfonik orkestr üçün «İkili» konsertin, «Bayatı-Şiraz» simfonik muğamının, 6 kantatanın və 200-dən çox mahnının müəllifidir.

Süleyman Ələsgərovun yaradıcılığında musiqili komediya janrında yaratdığı əsərlər xüsusi yer tutur. Özünəməxsus dəst-xətti olan bəstəkar Üzeyir Hacıbəyovun ənənələrini davam etdirərək, bu janrın inkişafına nail olmuşdur.

O, 1960-1971-ci illər ərzində Azərbaycan Dövlət Musiqili Komediya Teatrının direktoru və baş dirijoru kimi fəaliyyət göstərmişdir. Onun bu teatrda tamaşaya qoyulmuş «Məhəbbət gülü», «Ulduz», «Özümüz bilərik», «Milyonçunun dilənçi oğlu», «Sevindik qız axtarır», «Hardasan, ay subaylıq», «Olmadı elə, oldu belə», «Həmişəxanım», «Gurultulu məhəbbət», «Hərənin öz ulduzu», «Subaylarınızdan görəsiniz» musiqili komediyaları tamaşaçılar tərəfindən məhəbbətlə qarşılanmışdır. «Ulduz» musiqili komediyasının səhnə və kino ekranlarındakı uğurlu taleyi əsərin vətəndən kənarda – Bolqarıstanda, Türkiyədə və keçmiş SSRİ respublikalarının bir sıra şəhərlərində tamaşaya qoyularaq müəllifinə böyük şöhrət gətirməsi ilə nəticələnmişdir.

Süleyman Ələsgərovun çoxşaxəli yaradıcılığından danışarkən onun müxtəlif illərdə A.Zeynallı adına Musiqi Texnikumunun direktoru, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri, Mədəniyyət Nazirliyinin incəsənət idarəsinin rəisi, Radio və Televiziya Komitəsində xalq çalğı alətləri orkestrinin dirijoru və komitənin musiqi-bədii rəhbəri, Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının müəllimi və professoru vəzifələrində çalışmasını da xüsusi qeyd etməliyik.

Süleyman müəllim xoşbəxt sənətkar idi. Çünki o, Üzeyir bəy kimi dahi sənətkardan dərs almış, onun ənənələrinin layiqli davamçısı olmuşdur.

Onun Üzeyir Hacıbəyovla bağlı xatirələrindən:

- Yaxşı yadımdadır, bir dəfə teatrda mənim dirijorluğum ilə «Arşın mal alan» operettası yeni quruluşda göstərilirdi. Tamaşadan sonra Üzeyir bəy mənə yaxınlaşdı. Aktyorların, musiqiçilərin ifasından razı qaldığını bildirdi. Ancaq mənə məsləhət gördü ki, üçüncü pərdədə Gülçöhrənin ariyasının ifasında fermatoya xüsusi fikir verim.

... Heç yadımdan çıxmaz. Üzeyir müəllim «O olmasın, bu olsun» operettasının yeni quruluşda ilk tamaşasından sonra səhnə arxasına gəlib bütün aktyorlara, orkestr heyətinə təşəkkür etdi və dirijorluqdan razı qaldığını bildirdi. 23-24 yaşlı gənc bir dirijor üçün bundan da böyük mükafat olardımı?..

... Mən əziz müəllimimə onun vəfatından sonra iki əsər həsr etmişəm. Bunlardan biri «Düşüncə» pyesi, o birisi isə sevimli xalq şairimiz Səməd Vurğunun sözlərinə bəstələdiyim «Eşq olsun sənətkara» balladasıdır.

.... Mən o kişinin əlindən su içmişəm, bütün həyatım boyu çalışmışam ki, onun tələbəsi olmaq şərəfini yaradıcılığımla, əməllərimlə doğruldum. Əldə etdiyim bütün nailiyyətlərə görə mən Üzeyir bəyə borcluyam...

Əvəzolunmaz insanların olduğunu artıq bizə Üzeyir Hacıbəyov öz şərəfli adı, yüksək insani keyfiyyətləri, yaradıcılığı, əməlləri ilə sübut etmişdir. Tələbəsi, davamçısı olaraq Süleyman Ələsgərov da öz növbəsində müəlliminin şərəfli adını, ucalığını yaşadaraq, yüksəkliyə – «əvəzolunmazlıq zirvəsi»nə ucaldı...

Cismən bizləri tərk edən, lakin narahat ruhu daim Azərbaycanımızda dolaşan görkəmli bəstəkarın 85 yaşı tamam olur. Ürəyimdən Süleyman müəllimi təbrik etmək, ona cansağlığı, uzun ömür, yaradıcılıq uğurları arzulamaq keçir.

● **Aytən HEYDƏROVA,**
***Üzeyir Hacıbəyovun ev-muzeyinin kiçik elmi işçisi***